# KİNEMATOQRAFİYA MÜƏSSİSƏLƏRİNİN MİLLİLƏŞDİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN SSR İNQİLAB KOMİTƏSİNİN DEKRETİ

1. ASSR-nın bütün kinematoqrafik müəssisələri bu gündən Azərbaycan xalqının milli mülkiyyəti hesab olunur və Xalq Maarif Komissarlığı nəzdindəki incəsənət yarımşöbəsinin sərəncamına keçir.

2. Hər hansı kinematoqrafik materialı (aparatlar, filmlər, reklam materialları və s.) olan bütün şəxsi idarələr və müəssisələr və şəxslər bu gündən etibarən yeddi gün müddətində Xalq Maarif Komissarlığı nəzdindəki incəsənət yarımşöbəsinə bu barədə müfəssəl siyahı təqdim etməlidirlər. Həm də özgə şəhərlərdə yaşayanlar yerli inqilab komitələri vasitəsilə yazılı məlumat verə bilərlər.

3. Uçota götürülməmiş filmlərin prokatından başqa kinematoqrafik əmlakın hər cür satışı, zəbt olunması, başqasına verilməsi və başqa yerə daşınması bu gündən etibarən qəti sürətdə qadağan olunur.

4. Bütün kinematoqrafik materiallar incəsənət yarımşöbəsi tərəfindən uçota götürülür və yarımşöbənin icazəsi olmadan hər hansı bir idarə və qanunla onun müsadirə və ləğv edilməsi qəti surətdə qadağan olunur.

5. Əhali arasında mövcud kinematoqrafik materialı düzgün bölüşdürmək məqsədilə yarımşöbə yanında mərkəzi kinematoqrafik prokat kontoru "Mərkəzprokat" təşkil olunur. Kinematoqrafik materialla bağlı bütün tələblərlə bu kontora müraciət etmək lazımdır.

6. Mövcud dekretin düzgün həyata keçirilməsinə nəzarət yerli inqilab komitələrinə tapşırılsın.

7. Dekretdə şərh edilmiş tələbləri yerinə yetirməyənlər, əmlakı gizlədənlər və düzgün olmayan məlumatlar verənlər inqilab dövrünün bütün ciddiliyi ilə cəzalandırılırlar.

**AZƏRBAYCAN İNQİLAB KOMİTƏSİNİN SƏDRİ**
**NƏRİMAN NƏRİMANOV**
**04.07.1920**